Ədalət.- 2021.- 2 oktyabr. S. 3.

# "Mənim Azərbaycanın gələcəyinə ümidlərim böyükdür"

**Hər il oktyabrın 3-də XX əsr Azərbaycan ədəbiyyatının klassiki, unudulmaz sənətkarımız, xalq yazıçısı, görkəmli nasir və dramaturq İlyas Əfəndiyevin xatirə günü qeyd olunur. O, Qarabağ uğrunda mücadilə illərində dünyasını dəyişdi. Ustad sənətkar mübariz bir fədai kimi əlində qələm - son günlərinəcən bu müqəddəs savaşın önündə oldu və ürəyi bu dərdə dözmədi. " Torpaq bizə əmanətdir, onu gözümüz kimi qorumalıyıq " deyən sənətkar öz əsərləriylə canı qədər sevdiyi xalqını qəhrəmanlığa, vətənpərvərliyə, vətən və torpaq təəssübü çəkməyə səsləyib. Bunun üçündür ki, sənətkarın milyonlarla oxucu, tamaşaçı və dinləyici auditoriyası var. İlyas Əfəndiyev doğma xalqına, onun iztirablarına, sevincinə, arzu və istəklərinə daima sadiq qaldı. Onun yaratdığı obrazlar qalereyası canlıdır, təbiidir. Və bu obrazlardakı özünəinam, fədakarlıq, mərdlik, təəssübkeşlik doğma xalqımızdan, sənətkarın öz şəxsiyyətindən, təbiətindən irəli gəlir. 82 illik ömrünün 60 ilindən çoxunu bədii ədəbiyyata həsr etmiş ünlü sənətkarın dünya dramaturgiyasını zənginləşdirən həmişəyaşar əsərləri onu dünya miqyasında tanıtdı. Əsərləri ingilis, alman, türk, fransız, ərəb, rus, fars, çex, polyak, slovak, bolqar, macar, ispan, litva, eston, gürcü və s. xalqların dillərinə tərcümə olunub. Və bu əsərlər aktuallığına, bədii - estetik özəlliklərinə görə maraqla oxunur. Sevindirici haldır ki, İlyas Əfəndiyevin oxucu auditoriyası öz çevrəsini mütəmadi olaraq genişləndirməkdədir. Təbii ki, zaman keçdikcə mütəfəkkir sənətkarın yaradıcılığına olan maraq və sevgi daha da artır.**

İlyas Əfəndiyevin yazdığı 22 pyesdən 19-u Akademik Milli Dram Teatrının səhnəsində tamaşaya qoyulub və bu pyeslər çağdaş teatrın inkişafına güclü təsir göstərdi. Azərbaycan teatr poetikası bədii - estetik siqlətini geniş anlamda " İlyas Əfəndiyev teatrı " nda tapdı. Dramaturqun teatr mədəniyyətimizdəki rolu əsasən üç istiqamətlə bağlı olmuşdur: yeni repertuar, yeni rejissor üslubu və yeni aktyor məktəbi. İlyas Əfəndiyevin pyesləri Moskva, Sankt Peterburq, Almatı, Səmərqənd, Aşqabad, Tiflis, Vilnüs, Mahaçqala, İrkutsk, İstanbul, Ankara və s. şəhərlərdə tamaşaya qoyulmuş və böyük müvəffəqiyyət qazanmışdır. Türkiyənin məşhur rejissoru Kənan İşıq demişdir ki, " Siz bu iki tamaşa ilə (söhbət " Sevgililərin cəhənnəmdə vüsalı " və " Bizim qəribə taleyimiz " tamaşalarından gedir) bütün Avropa ölkələrini gəzə bilərsiniz. Çünki bu əsərlərdə qaldırılan problemlər millətindən asılı olmayaraq bütün insanlara aiddir ". Dramaturqun tarixi dramlarında əsas aparıcı xətt qəhrəmanlıq motivləridir.

" Həqiqi sənətkarın taleyi həmişə öz xalqının böyük taleyi ilə bağlı olmuşdur " - deyən sənətkarın keçən əsrin 70 - 90 cı illərdə qələmə aldığı "Mahnı dağlarda qaldı" (1971), "Xurşidbanu Natəvan" (1981), "Şeyx Xiyabani" (1986), "Sevgililərin cəhənnəmdə vüsalı" (1989), "Tənha iydə ağacı" (1991), "Dəlilər və ağıllılar" (1992), "Hökmdar və qızı" (1994) dramları tarixə yeni təfəkkürlə yanaşması, yeni münasibəti, xalqımızın azadlığı və müstəqilliyi uğrunda apardığı mübarizə ilə bağlıdır.Dramaturqun tarixi dramları özünün bədii - fəlsəfi fikir dərinliyi, milli problematikanın muasirliyi, yüksək mənəvi - əxlaqi dəyərlərə malik qəhrəmanları ilə yaradıcılığında xüsusi yer tutur. Onun hər yeni pyesi teatr mədəniyyətində hadisəyə çevrilmişdir. Milli idrakı, milli düşüncəni, istiqlaliyyət və azadlıq ideyalarını gücləndirmək baxımından bu tarixi dramlar xalqın milli azadlıq hərəkatına güclü təsir göstərirdi. Ümummilli lider Heydər Əliyev dramaturqun "Hökmdar və qızı" tamaşasına baxdıqdan sonra onun dramaturgiyasını təhlil edərək dəyərli fikirlər söyləmişdir: "İlyas Əfəndiyev Azərbaycan teatrına çox böyük töhfələr veribdir, böyük xidmətlər göstəribdir, çox dəyərli əsərlər yaradıbdır. İlyas Əfəndiyevin yaradıcılığı başqa cəhətlərlə yanaşı, bir də ona görə əhəmiyyətlidir ki, o, öz əsərlərində həm Azərbaycan xalqının tarixinin çox mühüm səhifələrini, ədəbiyyat, teatr vasitəsilə bugünkü nəsillərə çatdırıbdır, həm də öz əsərlərində müasir həyatımızın müsbət və mənfi cəhətlərini çox gözəl təsvir edibdir. Beləliklə, xalqımızı həm tarixə hörmət bəsləməyə sövq etmişdir və bu barədə xidmətlər göstərmişdir, tarixi bilmək üçün xalqımıza yardım etmişdir, eyni zamanda, yaşadığımız zamanda mənəviyyat, əxlaq, insanlıq, Vətənə və millətə sədaqət ruhunu aşılamışdır. "

İlyas Əfəndiyevin yaradıcılığında Qarabağ mövzusu xüsusi yer tutur.

Yazıçının Qarabağın həyatından və tarixi keçmişindən bəhs edən "Geriyə baxma, qoca," "Üçatılan" romanları, "Hacı Axundun cənnət bağı necə oldu?," "Çovğunlu bir qış günündə," "Orfey quyudan çıxandan sonra nə gördü," "Xan qızı Gülsənübərlə tarzən Sadıqcanın nağılı","Qaçaq Süleymanın ölümü","Şuşa yollarında " və s.povest və xatirə-esseləri bu mövzuya həsr olunmuşdur. Görkəmli ədəbiyyatşünas-tənqidçi Yaşar Qarayev yazırdı:

"Qarabağın tarixi barədə klassik sənədlər - yeddi" Qarabağnamə" var.

Bütünlükdə İlyas Əfəndiyev yaradıcılığını mən səkkizinci "Qarabağnamə" hesab edirəm. Qarabağın taleyi və gələcəyi barədə düşüncə, nigarançılıq və həsrət bu "Qarabağnamə" dən həmişə eşidilib."

Unudulmaz ədibin "adsız,yarımçıq və sonuncu əlyazması"( xalq yazıçısı Elçin bu adsız əlyazmasına şərti bir ad qoyub: "Qarabağnamə" dən son səhifələr") keçən əsrin iyirminci illərində Qarabağ elatının həyatından bəhs edir. Yazıçı təsvir etdiyi tarixi dövrə, xalqın adət - ənənəsinə, Qarabağ elatının bütün etnoqrafik xüsusiyyətlərinə, müxtəlif obrazların daxili aləminə dərindən bələdliyindəndir ki,



bu əsərlər bir nəfəsə oxunur və yadda qalır. Tarixi keçmişimizə müasirlik mövqeyindən yanaşan sənətkar yazırdı: "Uzaq və yaxın dünənimizə, milli - mənəvi mənliyimizə mən heç vaxt direktivlərin, proqramların, ayrı - ayrı dövlət rəhbərlərinin iradəsinin və istəyinin tələbi ilə yanaşmamışam. Keçmiş mənim üçün bəyilə,xanıyla-fəhləsiylə,qaçaq-qulduruyla birlikdə keçmişdir. Başqa sözlə desək,ulularımızın, babalarımızın namusla yaşadıqları ömürdür."Sözügedən əsərlərin məzmun-mündəricəsi ilə ilgili ədəbiyyatşünas və sənətşünaslar tədqiqat əsərlərində və çoxsaylı məqalələrində əhatəli bəhs ediblər.Bu barədə xalq yazıçısı Elçin yazır; "İlyas Əfəndiyev ən dəruni hisslər ilə Azərbaycana,Azərbaycanın içində-Qarabağa,Qarabağın içində isə -Füzuliyə, öz nəsil -nəcabətinə bağlı bir adam idi." Xalqımızın milli xüsusiyyətlərini dərindən öyrənməyə, dərindən duymağa çağırırdı ustad sənətkar. Hər bir insanda yüksək şüurun, Vətən sevgisinin, torpağa məhəbbətin və ali mənəviyyatın olmasını arzu edirdi. Nəzəri - estetik məqalələrində də yazıçı milli - mənəvi dəyərlərimizi, adət və ənənələrimizi, xalqımızın folklor ədəbiyyatını dərindən öyrənməyi təbliğ edirdi. O, milli -mənəvi dəyərlərimiz haqqında düşünərkən, babalarımızın müqəddəs saydıqları namus ənənələrinin yanından sükutla keçə bilmir: "Bizim milli namusumuz hər dövrdə, hər bir çətinlikdə xalqımızın mənəvi dayağı olub. Milli namus yalnız ər - arvad məsələlərinə aid olmayıb. Atalarımız milli namus dedikdə, vətən, millət namusu, qonum - qonşu təəssübü, böyük - kiçiyə hörmət və izzət haqqında düşünürlər. " Bu əsərlərdə doğma Qarabağımızın füsunkar təbiəti, əsrarəngiz gözəllikləri şairanə bir dillə tərənnüm edilir. Bu əsərlər Qarabağa, onun tarixinə və təbiətinə heyran olan ünlü sənətkarımızın dəruni hiss və duyğularının bədii təcəssümüdür. Bu əsərlərdə Qarabağ torpağının ətri, uca dağlarının təmiz havası və çiçəklərinin rahiyəsi duyulur. Xəyallarımızda, yaddaşlarımızda canlanır sanki bu yerlər. Təfsilata varmadan bəzi nümunələrə nəzər salaq: "Yay zamanı aran Qarabağın - Yevlaxın, Bərdənin, Tərtərin, Ağdamın, Ağcabədinin, Füzulinin, Cəbrayılın, Beyləqanın camaatı Şuşaya yaylağa gedərdilər. Bu əhalinin Şuşada iki məşhur gəzmək yeri var idi. Biri cənub hündürlüyündəki məşhur Cıdır düzü, digəri Ağdama gedən yolun üstündəki Ərimgəldi idi. Axşamçağı camaatın yarsı Cıdır düzünə, yarsı da Ərimgəldiyə gəzintiyə çıxardı. Arvadlar Şuşadan Ağdama gedən yola baxıb, arandan gələcək ərlərinin yolunu gözləyirdilər." ("Hacı Axund molla Şükürün cənnət bağı necə oldu?" xatirə - hekayəsindən);

**Dahi bəstəkarımız Üzeyir Hacıbəyliyə həsr etdiyi məqaləsində oxuyuruq: "Mən bu musiqiyə qulaq asanda, Qarabağın meşəli, uçurumlu dağlarını, yüz illərdən bəri İsa bulağında, Turşsuda, Səkili bulaqda qurulmuş toylu - büsatlı məclisləri, bu məclislərdə oxunan muğamları, təsnifləri xatırlayıram. Şuşanın Cıdır düzündə cıdıra çıxarılan incə ayaqlı, nəcib duruşlu, qaragöz Qarabağ atlarını, nişanlısının şəninə nişan atan, güləsi yayınmayan igidləri xatırlayıram. " ("Parlaq ulduz" məqaləsindən); "Xalq ruhu, xalq koloriti həqiqi sənətin, novatorluğun canıdır, orijnallığın əsas əlamətidir, mayasıdır" - deyən sənətkar Firidun Şuşalıya açıq məktubunda yenə xatirələrini vərəqləyir: "Mən o kitabı (Firidun Şuşalının "Azərbaycan musiqiçiləri" kitabı) nəzərdən keçirdikcə, uzaq keçmişdən mənə baxan o böyük sənətkarların portretlərini gördükcə, qəhrəman Pənah xanın hər tərəfi sıldırım qaya olan o sevimli dağın zirvəsində tikdirdiyi əfsanəvi Şuşa qalasını xatırlayıram.**

**(ardı qəzetin 5 oktyabr sayında)**

**Vəfa Xanoğlan**
**Sənətşünaslıq elmlər doktoru**